

# Ənvər Cümşüd oğlu SEYİDOV

Amansız ölüm qələm yoldaşımız, tanınmış hüquqşünas, hakim, polkovnik, hüquq elmləri doktoru, professor Ənvər Seyidovu aramızdan apardı.

Ənvər Seyidov 1949-cu il martın 29-da Vartaşen (indiki Oğuz) rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1964-cü ildən başlayan Ə.Seyidov səhiyyə və rabitə sahəsində müxtəlif işlərdə çalışdıqdan sonra, 1972-ci ildə Azərbaycan Ədliyyə Nazirliyi sistemində işə başlamaqla, respublika VVA Arxivinin müdiri, Notariat və VVA İdarəsinin baş məsləhətçisi, Zaqatala və Cəlilabad rayon məhkəmələrinin hakimi, Cəlilabad Rayon Məhkəməsinin sədri vəzifəsində işləmişdir. 1990-cı ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin, 2000-ci ildən Ağır Cinayətlərə dair Azərbaycan Respublikası Məhkəməsinin, 2011-ci ildən 2019-cu ilədək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifələrində işləmişdir. Hərbi polkovnikdir. 1994-99-cu illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü, təftiş qrupunun rəhbəri olmuşdur.

Ənvər Seyidov "Azərbaycan Respublikasında beynəlxalq normaların tətbiqi" (2003), "Konstitusiya və hüququn əsasları", "Hüququn əsasları" (2008), "Heydər Əliyev və Azərbaycan Konstitusiyası" (2008) dərsliklərinin müəllifidir.

1997-ci ildən "Əsilzadələr Məclisinin" üzvü idi.

"Ünvansız eşq" romanı və ssenarisinin müəllifidir.

2009-cu ildə ekranlara cıxan "Gürzə" filmi televiziya filmləri arasında 1-ci diploma layiq görülmüşdür.

Ənvər Seyidovun ilk bədii əsəri - "Təlatüm" romanı 2008-ci ildə Mir Cəlal Paşayevin 100 illik yubileyi ilə bağlı Milli Kulturoloji Mərkəz tərəfindən keçirilən VIII Kitab Bayramında xüsusi mükafatı qazanaraq "İlin Kitabı" elan olunmuşdur.

Ə.Seyidov "Qızıl Qələm" və "Qızıl Qılınc" mükafatlarına layiq görülmüşdür. 2011-ci ildə yaradıcılıq uğurlarına görə "Rəsul Rza" mükafatı, 2018-ci ildə Türk Dünyası Beynəlxalq Araşdırmalar Elmlər Akademiyası tərəfindən Türk Dünyası elminə və mədəniyyətinə xidmətlərinə görə mükafalatlandırılmışdır. "Təlatüm", "Gürzə", "Ünvansız Eşq" və "Dələduzlar" romanları əsasında bədii televiziya filmləri çəkilmişdir.

Ə.Seyidov "Azərbaycan Teatr Xadimləri İttifaqı"nın, Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Ağsaqqallar Şurasının üzvü idi.

İstedadlı qələm yoldaşımız, səmimi insan Ənvər Seyidovun işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

Allah rəhmət eləsin!

Azərbaycan Yazıçılar Birliyi